BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2010*

# ŞİMALİ AZƏRBYCANDA 1870-Cİ İL KƏNDLİ İSLAHATININ HƏYATA KEÇİRİLMƏSİNDƏ İKİ ƏSAS MƏRHƏLƏ HAQQINDA

**F.E.BAXŞƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***baxsalievfazil@yahoo.com***

*Şimali Azərbaycanda aqrar islahatın həyata keçirilməsinin bir qədər ləngiməsində ən əsas səbəblərdən biri mülkədarlar və digər kateqoriyadan olan torpaq sahiblərinin mövqeyi idi. Sonralar tarixi ədəbiyyatlarda «Qolitsın layihəsi» adı alan sənəd əslində Cənubi Qafqazda kəndli məsələsinin həlli yolunda ilk ciddi addım idi. 1909-cu ilin əvvəllərindən başlayaraq 1910-cu ilin ortalarına qədər Canişin dəftərxanası səviyyəsində gələcək qanun layihəsi daha bir neçə dəfə müzakirələrdən keçmiş oldu. Qanun layihəsi 1912-ci il dekabrın 10-da Dövlət Şurasında təsdiq olunduqdan sonra onun çar tərəfindən imzalanması və qüvvəyə minməsi üçün heç bir maneə qalmadı. 1912-ci il dekabrın 20-də çar tərəfində imzalanan qanun təxminən 42 il davam edən «müvəqqəti mükəlləfiyyətli münasibətlərin» sonu demək idi.*

XIX əsrin sonunda Şimali Azərbaycan kəndində yaranmış vəziyyət, iqtisadi inkişafın qarşısındakı maneələrin aradan qaldırılması zəruriliyi müstəmləkə hakimiyyət orqanları ilə ali müsəlman silkinin nümayəndələri arasında münasibətlərin məzmununda ciddi dəyişikliklər yaranmasını zəruri edirdi. Halbuki mülkədarlar və digər kateqoriyadan olan torpaq sahibləri kəndlilərin indiyə qədər istifadə etdiyi pay torpaqlarından, hətta onlara kifayət qədər ödənc ödənildiyi halda, əl çəkmək niyyətində deyildilər (5, 668). Məhz bu məsələdə yerli ali müsəlman silkindən olan bəy və ağaların tutduğu inadlı mövqe Rusiyadan fərqli olaraq Şimali Azərbaycanda aqrar islahatın həyata keçirilməsinin bir qədər ləngiməsində ən əsas səbəblərdən biri oldu desək, yəqin ki, səhv etmərik.

Buna görə də, 1912-ci ilə qədər Şimali Azərbaycanda kəndli islahatının başa çatdırılmasına yönəlmiş bütün qanunvericilik sənədlərinin məzmununda xüsusi bir ehtiyatlılıq, müvəqqəti mükəlləfiyyətli və kəndli-asılı münasibətlərin aradan qaldırılması prosesini mülkədarların mənafeyinə uyğun aparmaq niyyətləri özünü açıq-aşkar göstərməkdə idi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində müstəmləkə idarə-üsulunun müxtəlif pillələrində yüksək mövqe tutan, eyni zamanda, Cənubi Qafqazdakı yerli şəraitə və əhalinin əhval-ruhiyyəsinə kifayət qədər yaxından bələd olan məmurlar öz qeyd və hesabatlarında kəndli islahatının başa çatdırılmasını, ilk növbədə kəndlilərin vıkup əməliyyatlarını sürətləndirmək üçün konkret olaraq onlara maliyyə yardımı edilməsinin mümkün yollarını axtarıb tapmağı zəruri hesab edir və hətta bəzi konkret təkliflər də verirdilər (11, 245).

Qeyd etmək lazımdır ki, XIX əsrin sonlarında Rusiya kəndli bankının Cənubi Qafqaz filialının və yerlərdə bu filialın şöbələrinin açılması məsələsi bir neçə dəfə

gündəmə gətirilsə də, hətta bu məqsədlə yüksək rütbəli məmurların bölgəyə ezam edilmələri prosesi sürətləndirilsə də, nəticəsiz qalmışdı (16, 232). Əsas səbəb kimi isə bölgədə iqtisadi vəziyyətin, xüsusilə ağır vəziyyətdə olması və ümumiyyətlə, kəndlilərə vıkup əməliyyatları üçün müəyyən maliyyə vəsaitinin ayrılması məsələsi perspektivsizliyi göstərilmişdi (15, 326).

Məhz bu səbəbdən kəndlilərin vıkup əməliyyatlarının sürətləndirilməsi məsələsi ətrafında aparılan işlər nəticəsiz qalmış və bu vəziyyət faktik olaraq 1905-ci ildə Qafqazın yeni canişininin öz vəzifəsinin icrasına başlayana qədər, demək olar, dəyişməmişdi.

Birinci rus inqilabı ərəfəsində maliyyə strukturlarının, quberniya kəndli məsələləri üzrə komissiyaların, yerli komitələrin üzvlərinin hesabatlarında diqqəti ən çox cəlb edən və tez-tez təkrarlanan əsas təkliflərdən biri bu idi ki, Rusiyanın mərkəzi quberniyalarında 1881-ci il 28 dekabr qanunu əsasında həyata keçirilən sahibkar kəndlilərinin öz pay torpaqlarını məcburi şəkildə satın alması haqqında müddəa Cənubi Qafqaz quberniyalarına da aid edilməlidir. Bu müddəa isə yalnız kəndlilərə müvafiq maliyyə yardımı göstərilməsi və ya onlara xüsusi kreditlərin ayrılmasından sonra reallaşa bilərdi (12, 640). Bu, ona görə zəruri hesab edilirdi ki, hökumət strukturlarında çalışan məmurların demək olar ki, böyük əksəriyyəti belə fikirdə idi ki, pay torpaqlarının dəyərinin mülkədarlara uzun müddətə yox, dərhal, həm də nağd pula ödənilməsi ali müsəlman silkinin nümayəndələrinin ehtimal olunan narazılıq çıxışlarının təsirini xeyli azalda bilərdi (4, 30-31).

Beləliklə, bəhs edilən dövrdə kəndli məsələsi üzrə görülən işlərin yekunu olaraq toplanmış materiallar, irəli sürülmüş təkliflər 1912-ci il 20 dekabr Aqrar qanununun məzmununun formalaşmasında mühüm rol oynamış Qolitsın layihəsinin ortaya çıxmasına səbəb oldu (14, 110). 1904-cü ildə Qafqaz mülki işlər idarəsinin baş rəisi knyaz Qolitsının hazırladığı Cənubi Qafqaz quberniyalarında müvəqqəti mükəlləfiyyətli münasibətlərin ləğv edilməsi haqqında qanun layihəsinin ilk variantı 1870-ci il 14 may Kəndli Əsasnaməsinin qəbul edilməsindən keçən 40 ildən bir qədər artıq müddətdə həmin Əsasnamənin reallaşması yolunda, demək olar, ilk ciddi addım idi (14, 108-116).

Sonralar tarixi ədəbiyyatlarda «Qolitsın layihəsi» adı alan bu sənəd əslində Cənubi Qafqazda kəndli məsələsinin həlli yolunda ilk ciddi addım hesab edilməlidir. Layihədə ilk olaraq Cənubi Qafqaz quberniyalarında sahibkar kəndlilərə dövlət tərəfindən maliyyə yardımı göstərilməsi şərti ilə onların öz pay torpaqlarını məcburi olaraq almaları nəzərdə tutulurdu. Keçmiş sahibkar kəndliləri öz ağalarına pay torpaqlarının dəyərini ödədikdən sonra müvəqqəti mükəlləffiyyətli vəziyyətdən azad olunurdular. İlk baxışdan cəlbedici görünən bu müddəanın ardınca layihədə kəndlilərin hər il dövlətdən aldıqları kredit əvəzində ağır illik vıkup pulu faizləri ödəməsi haqqında bəhs edən ayrıca müddəa da göstərilirdi. Qanun öz məzmunu etibarılə onsuz da ağır ehtiyac və iqtisadi durumda yaşayan sahibkar kəndlilərinin illik vıkup pulu faizləri ödəməsini nəzərdə tutaraq qarətçi xarakter daşımaqla bərabər, müstəmləkə hökumətinin yerli mülkədarla və digər torpaq sahibləri ilə münasibətlərdəki tarazlığını qoruyub saxlamaq niyyətlərini bir daha sübut edirdi (14, 109-110).

Lakin Qolitsın layihəsi müxtəlif instansiyalarda bir neçə dəfə müzakirə olunsa da, rəsmən təsdiq edilmədi. Rusiyada birinci rus inqilabının başlanması ilə əlaqədar mərkəzi quberniyaların ardınca milli ucqarlarda, o cümlədən Şimali Azərbaycanda da kəndli-mülkədar münasibətlərindəki gərginlik artmasaydı, Qolitsın layihəsinin real-

laşması daha bir çox illərləngiyə bilərdi.

Bu mənada elə inqilabın lap əvvəlində Qafqazın baş rəisi vəzifəsinin ləğv edilməsi və 1883-cü ildə ləğv edilmiş Qafqaz Canişini idarəsinin bərpa olunmasından sonra baş vermiş hadisələr əslində kəndli asılı münasibətlərində yeni dəyişikliklər dövrünə qədəm qoyulmasına təkan vermiş oldu.

Yeni canişin qraf Vorontsov-Daşkov fəaliyyətinin ilk günlərində dövlətin və cəmiyyətin əsas dayağı hesab edilən mülkədarların mənafe və maraqlarına xidmət edəcəyini bəyan etməklə, əslində çarizmin ali müsəlman silkinin nümayəndələri ilə həmrəylik siyasətini nümayiş etdirməklə bərabər, bölgədə yaranmış vəziyyətdən xüsusi narahatlıq keçirdiyini, xüsusilə kəndlilərin aztorpaqlılıq və çətin iqtisadi durumlarını «özbaşına həll etmək» niyyətlərinin yolverilməz olduğunu bildirməklə bərabər (7, v.1), digər tərəfdən də Cənubi Qafqazda müvəqqəti mükəlləfiyyətli münasibətlərin bundan sonra qalmasının bölgədə gələcəkdə kəndlilərin silahlı çıxışlarını sürətləndirəcəyindən xüsusi olaraq ehtiyatlandığını da gizlətməmişdi (14, 116-130).

Beləliklə, canişin öz təyinatının elə ilk ilində kəndli məsələsinin həllinin zəruriliyini qəbul edərək özünə qədər görülmüş işləri ümumiləşdirərək 1905-ci ilin noyabrın 22-də «Cənubi Qafqazda kəndli məsələsinin nizama salınması haqqında qeydlərini» hazırladı (6, 11).

Tarixi ədəbiyyatlarda, xüsusilə XX əsrin əvvəllərində yazılmış əsərlərdə «Canişin qeydləri»nin inqilabi əhəmiyyət daşımasından bəhs edilir və qeydlərin az qala 1912-ci il 20 dekabr qanunu ilə eyni səviyyədə dayandığını göstərirlər. Bu müddəanı qəbul edən O.Syominin (14, 22) və Seqalın (13, 5-98) mövqelərinin sonradan Cənubi Qafqazda aqrar münasibətlərinin inkişafı probleminin ən məhsuldar tədqiqatçılarından biri olmuş S.L.Avaliani tərəfindən qəbul edilməsi özü də bu fikrin həqiqətə çox yaxın olduğunu bir daha təsdiq edir (3, 87).

Fikrimizcə, «Canişin qeydləri»ni adı çəkilən qanun layihəsi ilə eyniləşdirənlər və ya ona bərabər tutanların mövqeləri daha inandırıcı görünür. Doğrudur, qeydlər 7 il ərzində bir neçə dəfə müxtəlif instansiyalarda müzakirələrin gedişində çox əsaslı şəkildə təkmilləşmiş, bəzi müddəalar «Qeydlərdən» çıxarılmış, onun mətninə bir sıra çox mühüm məqamlar əlavə edilmiş, lakin bütün hallarda «Qeydlər»in əsas ideya və istiqamətləri, demək olar ki, dəyişməz qalmışdır. «Qeydlər»in ilkin variantının 1912-ci il 20 dekabr qanunu ilə (1, v.12-29) əsaslı şəkildə müqayisəsi fikrimizi bir daha təsdiq edir.

«Qeydlər»in məzmununun çox qısa bir müddət ərzində müəyyən dəyişikliklərə məruz qalması isə əslində imperiyadakı inqilabi şəraitdə yaranmış mürəkkəb ictimai-siyasi vəziyyətdən irəli gəlirdi (4, 32). Belə ki, «Qeydlər»in yarandığı ilk ildə imperiyada inqilabın yüksələn xətlə inkişaf etdiyi şəraitdə bu sənəddə Cənubi Qafqaz kəndlilərinə imperiyanın mərkəzi quberniyalarında olduğundan daha çox güzəşt edilməsi təbii idi. Məsələn, qeydlərin yarandığı vaxt Cənubi Qafqazda kəndlilərin hətta ən az miqdarda belə pay torpaqlarının vıkup ödənilməsi əvəzində xüsusi mülkiyyətə çevrilməsindən sonra, illik ödənc faizləri vermək imkanları ağlasığmaz görünürdü. Məhz bu baxımdan «Qeydlər»də Cənubi Qafqazın 5 quberniyasında sahibkar mülklərində yaşayan kəndlilərin vıkup pulu ödəməkdən azad edilməsi nəzərdə tutulmuşdu (14, 116-110). Lakin çox keçmədi ki, inqilabın 1906-cı ilin əvvəlindən başlayaraq aşağı enməsinə, daha doğrusu geri çəkilməsinə hakim dairələrdə xüsusi əminlik yarandıqdan sonra «Qeydlər»də ilk baxışda bir qədər radikal görünən bəzi müddəalardan geri çəkilmə halları baş verir.

Lakin hələ buna qədər «Qeydlər»in mətnində kəndli pay torpaqlarının əvəzində mülkədarlara ödəniləcək məbləğin mənbəyinin müəyyən edilməsi üçün təkliflərin verilməsi müsbət hal idi. «Qeydlər»də 1906-cı ilin yanvarın 1-dən Cənubi Qafqaz quberniyalarında Dövlət Kəndli Bankının şöbələrinin açılması və bu şöbələr vasitəsilə dövlət tərəfindən mülkədarlara kəndlilərin mülkiyyətinə keçən pay torpaqları əvəzində pul vəsaitinin ödənilməsinin təklif edilməsi hələ keçən əsrin sonlarında bir qrup dövlət məmurunun kəndlilərə pay torpaqlarını satın almaq üçün kredit ayrılması təklifinin yenidən gündəmə gəlməsi idi (2, 57-58).

Doğrudur, elə həmin 1906-cı ilin əvvəlindən başlayaraq Rusiyada siyasi vəziyyətin dəyişməsi, daha dəqiq desək, inqilabi hərəkatın zəiflədiyi bir şəraitdə «Canişin Qeydləri»ndə bir qədər radikal görünən bəzi müddəalardan geri çəkilmə özünü çox da gözlətmədi və Qolitsin layihəsindəki kəndlilərin pay torpaqlarını yalnız özləri tərəfindən satın alınması haqqında fikirlər yenidən «Qeydlər»də öz əksini tapdı.

1906-cı ilin avqustun 15-də Nazirlər Kabinetində «Canişin Qeydləri»nin qəbul olunmaması bir tərəfdən hakimiyyət strukturlarında guya siyasi sabitliyin möhkəmlənməsi, həm də layihədə kəndlilərin pay torpaqlarını dövlətdən aldıqları borc hesabına satın almaları haqqında müddəa ilə razılaşdırılmaması idi.

Lakin rus inqilabının başa çatmasından sonra belə mərkəzi quberniyalarda, habelə milli ucqarlarda əvvəlki kəndli-asılı münasibətlərinin məzmununun dəyişməz qalması mümkün deyildi. 1906-cı il 9 noyabrda Stolıpinin aqrar islahatının həyata keçirilməsi imperiya hökumətinin mövqeyini göstərməklə yanaşı (8, 20), həm də «Canişin Qeydləri»ndə irəli sürülmüş əsas məqsədlərə nail olunmasının zəruriliyini bir daha sübut edirdi.

Rus inqilabının başa çatmasından sonra Cənubi Qafqazda kəndli aqrar islahatının başa çatdırması zəruriliyi artıq regionda Canişinlə yanaşı idarəçilik strukturunda çalışan bir sıra məmurları da ciddi düşündürürdü. 1912-ci il aqrar qanunu ərəfəsində bu məmurların islahat haqda müxtəlif təkliflər irəli sürməsi, öz mülahizələrini əlaqədar strukturlara çatdırması da bu baxımdan irəli gəlirdi.

Qeyd etmək lazımdır ki, Cənubi Qafqazda aqrar-kəndli islahatının başa çatdırılması məsələsi ətrafında diskussiyaların digər məkanı Rusiya Dövlət Duması idi və Dumanın bir qrup deputatının imzaladığı və 1908-ci ilin dekabrında müzakirəyə təqdim edilmiş qanun layihəsi bu istiqamətdə görülmüş işlərdən növbətisi, həm də daha radikal xarakterlisi idi (9, v.50).

Layihə, özündən əvvəlki daha 2 layihə ilə birlikdə problemlə bağlı ədəbiyyatlarda geniş şərh edilmiş, həm də çox ciddi müqayisələr aparılmışdır.

Lakin çarizmin milli ucqarlarda, o cümlədən Cənubi Qafqazda aqrar münasibətlərdəki hakim vəziyyəti siyasətinə sadiq qalan Duma əksəriyyətinin sözügedən qanun layihəsinə qarşı çıxması (8, v.149) Canişin layihəsinin mövqelərini möhkəmlətdi və bundan sonra bütün əsas işlər 1912-ci il 20 dekabr qanunu elan edilənə qədər canişin layihəsinin təkmilləşdirilməsinə yönəldi.

Beləliklə, 1909-cu ilin əvvəllərindən başlayaraq 1910-cu ilin ortalarına qədər Canişin dəftərxanası səviyyəsində gələcək qanun layihəsi daha bir neçə dəfə, indi daha ətraflı və davamlı müzakirələrdən keçmiş oldu. Bu müzakirələrdə diqqəti daha çox cəlb edən məsələlər kəndlilərin yalnız nizamnamə fərmanlarında göstərilmiş qaydada və ölçülər daxilində öz pay torpaqlarını satın almaları, satın alınacaq torpaqların yenidən ölçülməməsi məsələsinin və ən nəhayət, vıkup pulunun kənd təsərrüfat məhsullarının 1870-ci il, yaxud 1909-cu il səviyyəsi əsasında müəyyən olunmasının (kənd

təsərrüfat məhsullarının 1909-cu il qiymətləri 1870-ci ildəkinə nisbətən 2 dəfə yüksək idi) idi və bu məsələ qanun layihəsi ətrafında istər yerli, istərsə də ümumimperiya idarəçilik orqanları səviyyəsində gedən mühzakirələrdə ən ciddi mübahisələr doğurmuşdu (8, v.150).

Kəndlilər tərəfindən vıkup pulunun bəhs edildiyi kimi hansı formada ödənilməsi ətrafında mübahisələrin davam etdiyi bir şəraitdə yerli mülkədar və digər kateqoriyadan olan torpaq sahiblərinin Canişin idarəsinə və imperiya orqanlarına təzyiqlər və rəsmi müraciətləri artmaqda idi. Belə ki, Yelizavetpol quberniyasından Fərrux bəy Vəzirov (8, v.152), Bakı quberniyasından Mark Doluxanov (8, v.151), İrəvan quberniyasından və Naxçıvandan olan Cəfərqulu xanın və Abbasqulu xanın hakimiyyət strukturlarına ünvanladıqları məktublardan vıkup pulunun məhz kənd təsərrüfatı məhsullarının son dövr qiymətlər əsasında hesablanmasını israrla təkid etsələr (10, v.154) də, hətta son halda iki mövqe arasında kompromis varianta razı olduqlarını bildirsələr də (2, 80), 1910-cu ilin mayın 22-də Canişin yanında keçirilən müzakirələrdə bunlara dəyişiklik edilmədi.

Çünki həm canişinin, həm də paytaxtda məsələ ilə yaxından tanış və məşğul olan yüksək çinli məmurların fikrincə, ağır borc faizləri ilə hələ uzun müddət ödənc pulu ödəməli olacaq kəndlilər üçün yenidən əlavə çətinliklər yaratmağa lüzum yoxdur, həm də mülkədarlar onsuz da «canişinsayağı islahatın» həyata keçirilməsi nəticəsində istədiklərinin əksəriyyətinə nail olurdular.

Qanun layihəsində mülkədarları ən çox narahat edən məsələlərdən biri islahatdan sonra sahibkar kəndlilərinin servitutlardan istifadə qaydaları haqqında məsələyə aydınlıq gətiriləyəcəyinə, hətta yaxın vaxtlarda bu məsələyə qəbul olunması nəzərdə tutulan yeni qanunda yer ayrılacağı vəd edilirdi (8, v.241-242).

Beləliklə, təxminən 5 ilə yaxın müddətdə çoxsaylı müzakirələrdən keçən, lakin çox da ciddi dəyişikliklərə məruz qalmayan qanun layihəsi (dəyişikliklər əsasən torpaq sahiblərinin kənddə hakim mövqeyinin toxunulmaz qalmasına, mülkədar torpaq sahibliyinin tamamilə ləğv edilməsi təhlükəsinin qarşısını almağa yönəlmişdi) kifayət qədər təkmilləşmiş bir formada 1911-ci ilin əvvəlində Nazirlər Şurasına təqdim olundu. 1911-ci ilin martın 17-də Nazirlər Kabinetində təsdiq edilmiş layihənin variantında, demək olar heç bir dəyişiklik baş verməmişdi və bundan sonra layihənin növbəti ünvanı Dövlət Duması oldu.

Nazirlər Şurasına təqdim olunan qanun layihəsi ilə «Canişin Qeydləri»nin arasında bəzi prinsipial fərqlərin olduğu da diqqəti cəlb edirdi. Belə ki, qanun layihəsindən dövlət kəndlilərinin kənarda qalması, gələcək islahatın Zaqatala dairəsinə aid edilməməsi (guya dairədə kəndli asılı münasibətlərinin mürəkkəbliyi və vəziyyətin yerindəcə xüsusi olaraq öyrənilməsinin zəruri olması əsas götürülürdü) əslində «Qeydlər»dən prinsipial şəkildə geri çəkilmə demək idi.

Qanun layihəsinin 1911-ci ilin sentyabrında Dövlət Dumasına təqdim olunan müzakirələri çox çəkmədi. Dumada azərbaycanlı deputat Xəlil Xasməmmədovun və digərlərinin çıxışlarında layihənin məzmunundan, əsasən, razılıq ifadə olunurdu. Müzakirələrdə layihənin yalnız bir maddəsi – torpaq sahiblərinin mülkiyyətindəki istifadəsiz qalan bataqlıq, yarğan və digər yerlərin kəndlilərə pulsuz verilməsindən bəhs edən (10, v.191-193) maddəyə müəyyən etirazlar səslənsə də, çox da davam etməyən müzakirələrdən sonra həmin maddə qüvvədə saxlandı və qanun layihəsi qəbul olundu (10, v.221).

Qanun layihəsi 1912-ci il dekabrın 10-da Dövlət Şurasında da heç bir dəyişilik

edilmədən təsdiq olunduqdan sonra (10, v.241) onun çar tərəfindən imzalanması və nəhayət, qüvvəyə minməsi üçün heç bir maneə qalmadı və 1912-ci ilin 20 dekabrında çar tərəfində imzalanan qanun təxminən 42 il davam edən «müvəqqəti mükəlləfiyyətli münasibətlərin» sonu demək idi.

## ƏDƏBİYYAT


1.Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi. f.2788, siy.1, iş 71.
2. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi .inv.1253.
3. Авалиани С.Л. Крестьянский вопрос в Закавказье. Т. IV. Тифлис: ТГУ, 1920, 235с.
4. XX əsr Azərbaycan tarixi. I c. Prof.T.T.Vəliyevin ümumi redaktorluğu ilə. Bakı: Təhsil, 2009, 560 s.
5. Azərbaycan tarixi / Prof. S.S.Əliyarlının ümumi redaktorluğu ilə. Bakı: Çıraq, 2009, 860 s.
6. Гугушвили П.В. Аграрные отношения в Закавказье на рубеже XIX-XX вв.. Тбилиси: Наука, 1955, 698 с.
7.Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivi. f.13. siy.7. iş 2539.
8. Yenə orada. f.13. siy.7., iş 2542
9. Yenə orada. f.13. siy.7., iş 2541
10. Yenə orada. f.13. siy.7., iş 2543
11. Медушевский А.Н. Проекты аграрных реформ в России. XVIII - начало XX вв. М.: Наука, 2005, 641 с.
12. Под ред. Н.И.Павленко. История России с древнейших времен до 1861 года. М.: Юрайт, 2010,748 с.
13. Сегаль И.Л. Крестьянское землевладение в Закавказье. Тифлис: 1912, 155 с.
14. Семинь О. Великая годовщина: Аграрный вопрос и крестьянская (крепостная) реформа на Кавказе. Киев: Вся Россия, 1911, 166 с.
15. История России с начала XVIII – до конца XIX вв. / Под ред. А.Н.Сахарова. М.: АСТ, 2001, 544 с.
16. История России / Под ред. А.С.Сенявского, С.В.Цакунова и др. М.: Владос, 2002, 655с.


## О ХОДЕ ВЫПОЛНЕНИЯ КРЕСТЬЯНСКОГО ПОЛОЖЕНИЯ ОТ 14 МАЯ 1870 ГОДА В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ


**Ф.Э.БАХШАЛИЕВ**


### РЕЗЮМЕ


В статье указываются причины задержки выполнения Крестьянского Положения от 14 мая 1870 года. Одна из этих причин является неоднозначная позиция правительства в отношении высшего мусульманского сословия края.

В статье указано, что процесс выполнения основных пунктов Положения прошел очень длинный путь. Несмотря на то, что правительство через своих местных органов и структур старалось как можно быстро решать эти проблемы связанные с этим законом, долгое время это ни к чему не привело.

Лишь в начале XX века и из-за сложного социально-экономического положения в стране были сделаны конкретные шаги в этой области и они нашли свое отражение в царском указе от 20 декабря 1912 года.

# THE MAJOR TWO STAGES OF THE AGRARIAN REFORMS IN NORTHERN AZERBAIJAN IN 1870

**F.E.BAKHSHALİYEV**

## SUMMARY

The article elucidates the reasons for the delay in the implementation of the agrarian reforms from May 14, 1870 in North Azerbaijan. One of these reasons was the ambiguous position of the government against the high Moslem class of the edge. The article specifies that the procesess of performing the main points of the Position passed a very long way. In spite of the fact that the government through their own local organs and structures tried possibly quickly to solve the problems connected with this law, nothing was achieved for a long time. Only at the beginning of the XX century, because of the complex social-economic position in the country, specific steps were made in this direction which found their reflection in the Royal edict from December 20, 1912.